# Uşaq bağçası və ətraf aləmin qarşılıqlı təsiri sistemində məktəbəqədər yaşlı uşaqların sosial inkişafı

**Şəhla Qasım qızı Əliyeva**
*pedaqogika üzrə elmlər doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aliyevashaxla@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** məktəbəqədər, təhsil, uşaq, aləm, inkişaf
**Ключевые слова:** дошкольное, образование, ребенок, среда, развитие
**Key words:** pre-school education, child, rheıfşofz wednesday, development

Müasir dövrdə yetişməkdə olan nəslin sosial inkişafı ən aktual problemlərdən birinə çevrilmişdir. Valideynlər və pedaqoqlar cəmiyyətimizə daxil olan uşağın xoşbəxt, sevincli, ağıllı, yardımsevər, özünə inamı olan, müvəffəqiyyət əldə etməsi üçün nə edə biləcəkləri haqqında öncədən daha çox düşünürlər. İnsanın təşəkkülü prosesi uşağın insanlar aləmində nə cür uyğunlaşacağından, cəmiyyətdə öz yerini tapa bilib bilməyəcəyindən, öz istəklərini həyata keçirib keçirməyəcəyindən asılıdır.

İlk baxışdan məktəbəqədər yaşlı uşağın sosial dünyasının kiçik olduğu nəzərə çarpır. Bu, onun ailəsi, uşaq bağçasında görüşdüyü böyüklər və yaşıdlarıdır. Lakin uşağın ətrafında olan insanlar müxtəlif qarşılıqlı – qohum, dost, peşəkar – əmək və s. münasibətlərində olur. Buna görə də artıq məktəbəqədər yaş dövründən uşaqlarda insanların münasibətlərinin müxtəlifliyi haqqında təsəvvür formalaşdırmaq, onlara cəmiyyət həyatının qaydalarından və normalarından danışmaq, bu uşaqları davranış modelləri ilə tanış etmək lazımdır. Bir sözlə, sosiallaşma prosesini idarə etmək lazımdır.

Cəmiyyət nöqteyi-nəzərindən insan təşəkkülünün ən mühüm problemi böyüməkdə olan nəslin uğurlu sosiallaşmasını təmin etməkdir.

Sosiallaşmanın dualizmi, bir tərəfdən, şəxsiyyətin həm cəmiyyətə, həm də onun ayrı-ayrı qruplarına xas olan sosial təcrübəni, dəyərləri, normaları mənimsəməklə cəmiyyətə uyğunlaşmasından ibarətdir. Digər tərəfdən, öz mövqeyinin və təkrarolunmaz fərdiliyinin formalaşmasından, yeni sosio-mədəni təcrübə yaradan özünüinkişaf və özünüreallaşdırma prosesindən ibarətdir. Burada problem ondan ibarətdir ki, cəmiyyət sosial stereotipləri, rollara bölünmüş davranış standartlarını formalaşdırmağa səy göstərir və şəxsiyyət isə bu sosial təcrübəni qavrayıb, əxz etməlidir ki, cəmiyyətə əks qütbdə olmasın. Eyni zamanda şəxsiyyət öz təbii aktivliyi sayəsində muxtariyyət, müstəqillik, şəxsi mövqeyinin, təkrarolunmaz fərdiyyətinin formalaşması tendensiyasını yaradır.

Sosioloqların qarşısında bir məqsəd vardır: uşağın sosiallaşması və fərdiləşməsi proseslərinin həmahəngliyi. Bu məsələnin həlli zamanı məktəbəqədər yaşlı uşaqların sosial sahənin obyektləri ilə, ən yaxın ətrafdakı sosiumla tanış etdirilməsi böyük rol oynayır. Uşaqlara yaşadığı yerdə, uşaq bağçasının, oxuyacağı məktəbin yerləşdiyi yerdə, uşaq bağçasının, oxuyacağı məktəbin yerləşdiyi yerdə asanlıqla istiqamətlənməyi öyrətmək, mədəni dəyərlərə cəlb etmək yolu ilə uşaqda öz kiçik vətəninə məhəbbət hissini tərbiyə etmək çox vacibdir.

Yəni pedaqoji fəaliyyətin prioritet istiqaməti sosiumda uşaqların sosial inkişafı ilə bağlı

olmalıdır. Uşaq bağçalarının yaxın ətrafda yerləşən məktəblərlə çoxillik əməkdaşlıq təcrübəsi əsasında məktəbəqədər yaşlı uşağın sosiumla tanışlığının didaktik ardıcıllığı müəyyənləşmişdir.

Uşağın sosiumda tərbiyə olunmasına əsaslanaraq pedaqoqlar öz fəaliyyətini iki istiqamətdə qurmalıdır:

- davranış qaydalarının, normalarının tərbiyə olunması, özündən böyük uşaqlarla ünsiyyət mədəniyyətinin formalaşdırılması mövzusunda ailə ilə qarşılıqlı əlaqələrin təşkil edilməsi;
- uşaqda vətənpərvərlik hisslərini tərbiyə etməklə şəhərin, mikrorayonun həyatı haqqında təsəvvürlərin formalaşdırılması. Məktəbəqədər təhsil müəssisəsi ilə mədəni müəssisələrin qarşılıqlı təsir formalarının genişləndirilməsi.

Məktəbəqədər yaşlı uşaq üçün sosium ailə qədər əhəmiyyətlidir. Uşaqlar və valideynlər arasında yaranan qarşılıqlı münasibətlər uşağın sosiallaşmasında həlledici rol oynayır. Uşaq – valideyn münasibətləri cəmiyyətdə mövcud ola biləcək ən sıx və yaxın münasibətlərdir. Valideynləri sayəsində uşaq ətraf aləmi öncə müşahidə etmək, sonra isə onunla aktiv qarşılıqlı təsirdə olmaq imkanına malikdir.

Uşaq bağçasında yeni qrupa gələn uşaqlar özlərini itirir, özlərinə qapanır, evə getmək istəyirlər. Uşaqların qrupa asanlıqla uyğunlaşmasına valideynlərinin tərtib etdiyi "Mən kiməm", "Ailə albomu" adlı fotoalbomlar kömək edə bilər. Hər bir uşaq yaşıdlarına öz otağı, ailəsi, onlarla harada istirahət etməsi haqqında danışa bilər. Ailəsi üçün darıxdığı zaman isə təklikdə şəkillər vasitəsilə valideynləri ilə "söhbət" edə bilər. Bundan başqa, uşağın utancaqlığını aradan qaldırmaq üçün "Həftənin ulduzu" stendində onun şəkillərini asmaq olar. Uşaq hamının onunla maraqlandığını görüb daha sərbəst, ünsiyyətcil olur, utancaqlığını aradan qaldırır.

Erkən uşaqlığın sosiallaşmasında ailə ən vacib institut olmaqla qalır. Ailədə insanın xarakterinin, onun əməyə, mənəvi və mədəni dəyərlərə olan münasibətinin əsasları formalaşır.

Valideynlər və uşaqlarla işin əyani məlumat istiqaməti hər bir uşağa böyüklərə hörmət etmək, öz ailəsinin tarixini öyrənmək, əzizlərini anlamaq, yaxınlarına qayğı göstərmək, yaxşı münasibətləri qiymətləndirməyi və yaxınları ilə ünsiyyətdən sevinc hiss etməyi, anası haqqında, ona olan sevgisi haqqında danışmağı öyrənmək imkanını verir.

Uşağın ailənin böyükyaşlı üzvləri ilə sıx təması qohumluq əlaqələrini emosional cəhətdən zənginləşdirir, ailə ənənələrini möhkəmləndirir.

Uşağın sosiumla tanışlığının birinci mərhələsi ən yaxın ətrafla, yəni sosial infrastrukturun bir hissəsi olan uşaq bağçası ilə tanışlıqdır.

Uşaq özünü sosiumun gözü ilə qiymətləndirir və onun sosial statusu, sosiumla qarşılıqlı təsir imkanı, ümumilikdə psixoloji sağlamlığı onun özünüqiymətləndirməsindən asılıdır.

Uşaq bağçası "kiçik sosial aləm"i əks etdirir, belə ki, burada uşaqlar ilk dəfə müxtəlif fəaliyyət növləri ilə tanış olur: təhsil, mədəniyyət, xidmət sahələri, tibb, idman və bədən tərbiyəsi və s. ilə. Məhz uşaq bağçasında məktəbəqədər yaşlı uşaqların inkişafının yaş xüsusiyyətləri nəzərə alınır, uşaqların sosial inkişafı stimullaşdırılır, uşaq bağçasında, ekskursiyada, həyatdə davranış vərdişləri formalaşdırılır, uşaqlarda müxtəlif peşələrlə məşğul olan böyüklərin zəhmətinə hörmət tərbiyə olunur.

Ekskursiyaların, sərgilərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Ekskursiyalar oyun fəaliyyətinin inkişaf etməsini stimullaşdırır:

- uşaqlar öz roluna uyğun olaraq davranış xəttini qurur;
- oyun fəaliyyətini nitqlə müşayət etdirir;
- orijinal və hadisələri ardıcıllıqla cərəyan edən hekayələr uydurur və yaşıdlarına söyləyir;
- pedaqoq və uşaqlarla təəssüratlarını bölüşür, öz nöqteyi-nəzərini söyləyir.

Oyun vacib və ictimai təcrübəni mənimsəmənin özünəməxsus, məktəbəqədər yaşa uyğun vasitəsi olaraq çıxış edir. Onun əsas mənbəyi uşağın ətraf aləmi, böyüklərin və yaşıdlarının həyat və fəaliyyətidir. Oyun zamanı bir uşağın yaşıdları ilə real əməkdaşlıq münasibətləri formalaşır, uşaq müsbət müştərək fəaliyyət təcrübəsi əldə edir.

Uşağın sosiumla tanışlığının ikinci mərhələsi uşaq bağçası çərçivəsindən kənarda həyata keçirilən ekskursiyalardır, belə ki, məktəbəqədər təhsil müəssisəsinin sosiumla qarşılıqlı təsiri inkişafetdirici mühitin strukturunun ayrılmaz hissəsidir. Şəhərdə ekskursiya və gəzintilərin keçirilməsi uşağın ətraf aləmlə tanışlığı üçün ən yaxşı fəaliyyət növlərindən biri və ekoloji tərbiyənin, sağlamlaşdırıcı işin ayrılmaz hissəsidir.

Gəzinti zamanı uşaqlar küçədə davranış normalarını mənimsəyir, şəhər nəqliyyatı, yol hərəkəti qaydaları haqqında biliklərini möhkəmləndirirlər, bu isə yaşıdlarına və ətraf aləmə qarşı emosional münasibətin inkişaf etməsinə və problemli situasiyalarda yeni davranış yollarının mənimsənilməsinə səbəb olur.

Böyük məktəbəqədər yaş dövründə sosiumla tanışlığın mərkəzi obyektlərindən biri məktəbdir. Məktəbəqədər yaşlı uşaqların kommunikativ mədəniyyətinin sosial komponenti uşağın ətraf aləmlə, böyüklərlə və yaşıdları ilə düzgün həmahəng qarşılıqlı təsirinə əsaslanır. İnsanları hiss etməyi və onlara kömək etməyi, səbr və empatiya nümayiş etdirməyi öyrənən uşaq məktəblilər kollektivinə uğurla uyğunlaşır. Təcrübə göstərir ki, məktəbəqədər yaşlı uşaqlar qrupun, valideynlərinin və yaxınlarının həyatında aktiv iştirak edirlər. Onlar hər zaman köməyə gəlməyə hazırdır. Çox böyük maraqla qrupda məşğul olur və müxtəlif oyunlarda iştirak edirlər. Yuxarıda sadalananların keyfiyyətlər hamısı ünsiyyət zamanı uşaqda sosial idrakın aktivləşməsi nəticəsində mümkün olur. Onlar artıq böyüklərin aləmini anlayırlar. Təbiət, özü, valideynləri, böyüklər və yaşıdları haqqında kifayət qədər biliyə malik olur, digər uşaqlar və böyüklərlə yaxşı münasibət qurmağa qadirdirlər.

Bədii – ədəbi, idraki – nitqi, sosial – şəxsi fəaliyyətin inkişaf etdirilməsi üçün kitabxanalara ekskursiyalar təşkil edilməli, orada uşaqlar üçün söhbətlər, tematik məşğələlər keçirilməli, kukla teatrları göstərilməlidir. Bu məsələnin həlli zamanı valideynlərin köməyi əvəzedilməzdir. Valideynlərin köməyi ilə aptekə, poçta, oyuncaq dükanına ekskursiyalar təşkil edilməlidir. Bu cür ekskursiyalardan sonra uşaqlarda çox parlaq təəssüratlar qalır.

Müasir məktəbəqədər təhsil müəssisəsi sosiumla geniş əməkdaşlıq olmadan inkişaf edə və öz fəaliyyətini uğurla reallaşdıra bilməz. Bundan başqa, uşaq bağçası "uşaq bağçası – ailə – sosium" vəhdətinin yaradılmasında ailənin əvəzedilməz köməkçisidir. Bu vəhdət uşağın tərbiyəsinə, onun fərdi imkanlarının inkişaf etməsinə səbəb olur.

Beləliklə, sosiumla tanışlıq məktəbəqədər yaşlı uşağın sosiallaşmasına səbəb olur. Uşağın sosiallaşması dedikdə, onda davranış və ünsiyyət vərdişlərinin formalaşması nəzərdə tutulur, bu isə öz növbəsində inkişaf etmiş şəxsiyyətin əsasını təşkil edən xüsusiyyətlərdir.

Arasıkəsilməz qarşılıqlı münasibətlər prosesi kimi və insanın fərdi xüsusiyyətlərinin ictimai şəraitlə, sosial norma və davranış qaydaları ilə bağlanması kimi anlaşılan sosiallaşma şəxsiyyətin psixi sağlamlığına təsir göstərən ciddi emosional nəticələrə malikdir. Şəxsiyyətin inkişafı müstəqil şəkildə reallaşa bilməz, bunun üçün psixoloji – pedaqoji şərait yaratmaqla ona məqsədyönlü şəkildə təsir etmək lazımdır. Uşağın fərdi xüsusiyyətlərini nəzərə almayan, kifayət qədər nəzarət olunmayan və istiqamətləndirilməyən sosiallaşma həm bilavasitə, həm də sonradan üzə çıxan zərərli təsirə malikdir.

Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və idrakında baş verən dəyişikliklərin sistemli formada baş verməsidir.

Çağdaş zamanda məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisələri ilə sosiu-

mun qarşılıqlı təsiri nəticəsində məktəbəqədər yaşlı uşaqların sosial inkişafının müxtəlif parametrlərdən ilk olaraq nəzərədən keçirilməsi və qiymətləndirilməsidir.

**Məqalənin aktuallığı.** Uşaqların ictimai mühitdə sosiallaşmasının müasir dövrün ən aktual problemlərindən biri olduğunu və məqalənin də məhz bu mövzudan bəhs etdiyini nəzərə alaraq onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yeniılik ondan ibarətdir ki, məqalədə uşaqların sosiallaşmasında müasir sosiumun tələblərinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər müəssisələrdə fəaliyyət göstərən pedaqoji işçilər və bu istiqamətdə təhsil alanlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Bakı, 10 iyul 2012.
2. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: Elm, 2010.
3. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006.
4. Данилина Т.А.,Степина Н.М. Социальное партнерство педагогов, детей и родителей. Москва, 2004.

**Ш.К. Алиева**

## Социальное развитие детей дошкольного возраста в системе взаимодействия детского сада и окружающей среды

## Резюме

В статье раскрывается сущность социального развития дошкольника, его включение в систему общественных отношений. Также тут описывается процесс социально – личностного развития дошкольников, который включает различные виды деятельности реализуемые в дошкольных образовательных учреждениях, а также тут описывается обязательный минимум содержания программы, объясняются задачи, стоящие перед педагогами.

**Sh.G. Alıyeva**

## Social development of preschool children in the system of interaction of kindergarten and environment

## Summary

This article deals with a content of the social development of the pre – school pupils, the inclusion into the public relations. The process of the social – individual improvement, which includes various types of activities is described in this article. This article also includes requirements which are realized in pre – school programmers. Aims of the teachers are discussed, here too.

**Redaksiyaya daxil olub:** 07.02.2020